***Güntəkin NƏCƏFLİ*** *

# FIRTINALARDA YAŞANAN ÖMÜR

*Mən bir insan tanıyıram, elə bir insan ki, doğulduğu evdə, dünyaya göz açdığı kənddə, bir il də olsun yaşamadı. Amma dünyaya göz açdığı eli, obası üçün çoxsayda işlər görə bildi və görməkdə də davam edir;*

*Mən bir insan tanıyıram, elə bir insan ki, incidilərək, sındırılaraq tərk etdiyi doğma fakültəsini qayıdaraq sayılıb-seçilən bir elm ocağına çevirə bildi;*

*Mən bir insan tanıyıram, elə bir insan ki, tələbələrini qorumaq üçün fakültə dekanlığından istefa verdikdən sonra böyük çətinliklər bahasına qurub-yaratdıqlarını məhv etməyə çalışsalar da, onun daima alovlanan qəlbini söndürə bilmədilər;*

*Mən bir insan tanıyıram, elə bir insan ki, vaxtı ilə xalqımızın milli məfkurəsi ilə bağlı bütün yazılarına on səhifələrlə "mənfi rəy" verildiyi bir təşkilata illər sonra rəhbər təyin edilərək oranı milli tarix elmimizin qaynar nöqtəsinə, mərkəzinə çevirə bildi;*

*Mən bir insan tanıyıram, elə bir insan ki, onu sıxışdırdıqca, üzərinə hücumlar edildikcə o, daha da mübarizləşdi, daha da möhkəmləndi, əqidəsindən dönməz oldu və **Fırtına quşu** kimi fırtınalarda yaşanan ömrü üçün hər zaman şərəf və qürur duydu!*

Bu sətirləri istənilən qədər artırmaq mümkündür.

Bəli, bu insan Şəkinin Baş Göynük kəndində Rəhimoğulları (İrəhimuşağı) adlandırılan nəslin sayılıb-seçilən, müdrik, mübariz bir insanın – Qara Mikayılın evində dünyaya göz açan, amma bir il də olsun o evdə yaşamayan, bütün uşaqlığı qaçaq həyatında, çitəmə evlərdə, gəncliyi və yetkinliyi mübarizələrdə, təlatümlərdə, fırtınalarda keçən müəllimim Yaqub Mikayıl oğlu Mahmudovdur.

Onu ilk dəfə əyani şəkildə 1988-ci ilin sentyabr ayının ilk günlərində Bakı Dövlət Universitetinin (o zaman Azərbaycan Dövlət Universiteti) tarix fakültəsində dərsə getdiyim zaman tanıdım. Yaddaşımı vərəqləyirəm, çox çətin, müdriklik, qətiyyət tələb edən illər idi. Yaqub müəllimin bir dekan olaraq bizimlə bağlı fikirləri, arzuları, ideyaları çox, lap çox idi. Yeni məktəblər yaratmaq: "*Siz təki yaxşı oxuyun, sizə yeni-yeni dil qrupları açacağam, siz dil öyrənin*". "*sizi göndərəcəyəm dünyanın müxtəlif arxivlərinə, tarixımizlə bağlı araşdırmalar aparın*", "*bizim qədim tariximiz, çoxsaylı mənbələrimiz çin dilində yatır*",

* **Güntəkin Nəcəfli** - Tarix üzrə fəlsəfə doktoru, dosent AMEA A.A.Bakıxanova adına Tarix İnstitutu, şöbə müdiri

*"türkün qədim tarixi var, şumerlər məsələsi hələ işlənməyib"* – deyirdi, Yaqub müəllim bizə. Bütün bunlar kənd orta məktəbini bitirmiş, 3 il təsərrüfatda çalışmış sadə bir tələbə qız üçün möcüzə kimi gəlirdi.

Ötən il, yəni 2019-cu ilin fevralında Yaqub müəllimin şərəfli ömrünün yalnız bir səhifəsindən bəhs edən, təhsil aldığım dövrün tələbələrinin xatirələri əsasında ərsəyə gələn kitabımızı (*Şərəfli ömrün bir səhifəsi: Tarix Fakültəsi (1986-1990), (ideya müəllifi, tərtibçi və ön sözün müəllifi Güntəkin Nəcəfli). Bakı: "Turxan" NPB, 2019, 232 s.*) onun 80 illik yubleyinə sürpriz edə bildik.

O kitabın giriş mətnində də, qeyd etmişdim ki, Yaqub müəllimin zəngin və çoxşaxəli elmi və ictimai fəaliyyətini müxtəlif mərhələlərə ayırmaq, bu mərhələlərin hər bir səhifəsi ilə bağlı neçə-neçə elmi kitablar, məqalələr, dissertasiyalar yazmaq mümkündür. Bu səbəbdən də Yaqub müəllimin keçdiyi şərəfli ömür yolunu (bu fəaliyyətin rəsmi tərəflərini biblioqrafik göstəricilərdən bilsək də, bilmədiyimiz tərəfləri bildiklərimizdən daha çoxdur), çətin, mübarizə dolu, fırtınalarda keçən həyatını onun öz dilindən eşidib yazmaq, xatirələrini canlandırmaq istədim.

Onu dinlədikcə, qulaq asdıqca söylədiyi hər bir cümlə, hər bir fikir mənə qol-qanad verdi, bu işə girişdiyim üçün qürur duydum və həm də çiyinlərimə sanki məsuliyyətli bir yük qoyuldu. Çünki həyat artıq mənə çox şeylər öyrədib, ən əsası həyatın enişli-yoxuşlu yollarında öz ayaqları üzərində durmaq bacarığını öyrədib. İndi isə, Yaqub müəllimdən daha çox şeylər: *həyatda hər zaman mübariz olmağı; həyata küsməməyi; ən ağrılı dərdə belə təmkinlə dözmək bacarığını; elmin sehirli gücünü dərk etməyi; sənə xəyanət, nankorluq edənləri bağışlamağı; heç kəsin çörəyinə bais olmamağı; ən əsası hər bir hadisənin səbəbini kənarda deyil, özümüzdə axtarmağı* öyrənirəm.

Bəli, indiki gənclik onun fırtınalarda keçən şərəfli ömrünün bütün səhifələrini bilməli, bu səhifələrdəki hadisələrdən xəbərdar olmalı, çətin sınaqlardan necə çıxmaq bacarığını öyrənməli, ədalətin keşiyində durmağı, təmənnasız yaxşılıq etməyi örnək götürməlidir. Mən bu fırtınada keçən ömrün bəzi məqamlarını qısa tezislər şəklində gənclərimizə çatdırmağı özümə borc bildim. Bunlar aşağıdakılardır:

I. Onun çətinliklərlə dolu uşaqlıq illəri; abituriyent sıxlığında cırılmış köynəyini məftillə bağlayıb, böyük çətinlik və inadkarlıqla qəbul imtahanına girməsi; dövrün ən yüksək təqaüdlərinə layiq görülərək oxuduğu tələbəlik illəri; fakültədə saxlanılmaq qərarı və uğurlu namizədlik dissertasiyası müdafiəsi; Tarix fakültəsinin Elmi Şurasının qərarı ilə namizədlik işinə elmlər doktoru adı verilməsi qərarı; Və ilk zərbə, ilk haqsızlıq..., çətin mübarizənin başlanması, 24 gün ərzində Moskvadan diplomunun təsdiqini almasına baxmayaraq bir daha





fakültəyə qayıtmamaq qərarını verməsi.

II. Azərbaycan Sovet Ensiklopediyasında keçən şərəfli ömür: dahi mütəfəkkir Rəsul Rza məktəbi; ensiklopediyaçılara qarşı Moskva, İrəvan və içərimizdəki şər qüvvələrin hücumu; "Azərbaycan", "azərbaycanlılar" məqaləsi, Xalq Cümhuriyyəti, "Azərbaycanın parçalanması", Cənub Azərbaycan məsələləri ilə bağlı məqalələrin yazılmasına və ən əsası min bir əziyyətlə, böyük çətinliklə Kiyevdə çap etdirilən Azərbaycan tarixinə dair xəritələrə qarşı ciddi manеələr; bu çətin mübarizədə baş redaktor müavini vəzifələrinə qədər yüksələrək Vətən üçün daha gərəkli, daha cəsarətli işlərin görülməsi.

III. Azərbaycan Pedaqoji İnstitutu (indiki APU), qaynar həyat, çətinliklərlə dolu fəaliyyət: tədrisi yaxşılaşdırmaq, sağlam mühit yaratmaq, neqativ hallara, tələbələrə qarşı ədalətsizliklərə qarşı mübarizə.

IV. İncidilərək, sındırılaraq tərk etdiyi doğma Tarix fakültəsinə təkrar qayıdış: axşam, qiyabi və əyani şöbələrin dekan müavini kimi fəaliyyəti, "raykomluq fakültəsi" sindiromundan azad etdiyi fakültəni sayılıb-seçilən bir elm və tədris mərkəzinə çevirə bilməsi; ilk dekanlıq: həyata keçirdiyi çox mühüm yeniliklər və islahatlar; ermənilərin torpaq iddiası və xalqımızın milli oyanışı, Dağlıq Qarabağ və Ermənistanla sərhəd bölgələrdə vəziyyətin mürəkkəbləşməsi, Milli Azadlıq Hərəkatının formalaşması, Meydan hərəkatında Tarix fakültəsinin ideoloji və istiqamətverici mərkəz olması; Fövqəladə vəziyyətin tətbiq edildiyi dövrdə Tarix fakültəsinin həyata keçirdiyi çox mühüm elmi-ictimai tədbirlər və tarixi qərarlar; Yaqub müəllimin cəbhə bölgələrinə mütəmadi səfərləri, Respublika hakimiyyətinin fəaliyyətsizliyi və tətil hərəkatı, bu hərəkatda Tarix fakültəsinin aparıcı mərkəz olması; 20 Yanvar faciəsi ərəfəsində və sonrasında Yaqub müəllimin gördüyü müdrik tədbirlər; kommunist ideologiyasının əsiri olan manqurt məmurların tarix fakültəsinin bir qrup tələbəsinin universitetdən xaric edilməsi haqqında qərar verməsi; Yaqub müəllimin bu qərara rəsmi etirazı və fakültə dekanlığından istefa verməsi.

V. Müstəqil respublikamızın ilk *"Təhsil Qanunu"*nun fövqəladə vəziyyətin tətbiqi şəraitində hazırlanması və çox çətinliklər bahasına qəbul etdirilməsi; Azərbaycan təhsil sistemində bakalavr və magistr sisteminin tətbiqi; orta məktəblər üçün tarix sahəsində ilk proqramların, abituriyentlər üçün *"Tarix proqramları"*nın hazırlanması.

VI. Doğma Tarix fakültəsinə təkrar dekan təyin olunması: həyata keçirdiyi mühüm yeniliklər və islahatlar; yeni ixtisasların və mühüm mərkəzlərin açılması; böyük çətinliklə *"Türk odası"*nın qurulması; xaricdəki ali məktəb ocaqları ilə əlaqələrin yaradılması; iki cildlik, mükəmməl *Azərbaycan Xalq Cümhuriyyətinin* və *Qarabağın* tarixinə dair mükəmməl əsərlərin yaradılması.

VII. Tarix İnstitutu: milli tariximizin yenidən yazılması, azərbaycançılıq məfkurəsi, itirilmiş torpaqların tarixinin *(İrəvan xanlığı, Dərbənd, Qubadlı, Tiflis əmirliyi, Borçalı, Zəngəzur* və s.). tədqiqi; 30 ildən çox vaxt ərzində nəşr edilməyən *"Tarix İnstitutunun Elmi Əsərləri"*nin bərpası; *"Azərbaycan tarixi ilk mənbələrdə"* layihəsi; *"Azərbaycan xalqına qarşı ermənilərin həyata keçirdiyi soyqırımları"*nın və tariximizlə bağlı *erməni saxtakarlığının* araşdırılması; *"Azərbaycan tarixi atlas"*ının işıq üzü görməsi; *"Azərbaycan Respublikasının müstəqillik dövrünün tarixi"* və s. Ən əsası hazırda davam edən və görülməsi nəzərdə tutulan daha nələr-nələr.

Sonda yazımı Yaqub müəllimin ***Ata yurdu*** və ***azərbaycançılıq məfkurəsi*** haqda düşüncələri ilə bitirmək istəyirəm: "***Ata Yurdu hər bir kəs üçün sadəcə olaraq onun doğulduğu kənd deyil, bizim hər birimizin, xüsusilə də Azərbaycan gəncliyinin beyninə həkk olunmalıdır ki, onun Ata yurdu bütöv Azərbaycandır. Əgər bütöv Azərbaycan yoxdursa, Azərbaycanın müstəqilliyi yoxdursa, dövlətin yoxdursa sənin o doğulduğun kənd heç nədir. Böyük yurdun qədrini bilmədən kiçik yurdda yaşamaq mümkün deyil. Böyük yurdu qorumadan, böyük yurdun mənafeyi uğrunda həlak olmağı bacarmadan kiçik yurdu qoruyub saxlamaq olmaz!***"

"***Bir böyük arzum var, gün o gün olsun ki, şimallı-cənublu, şərqli-qərbli, Azərbaycanın bütün bölgələrindən olan Vətən övladı bir-biri ilə qarşılaşarkən "haralısan?" sualını verməsinlər. Bu "haralısan?" sualından mən çox zərbələr almışam. Millət nə qədər iki yerə, üç yerə bölünər? Gecə-gündüz nə qədər düşünər ki, inkişaf etmək üçün bəlkə mən də pasportumu dəyişim, o bölgədən olum. Yerliçilik olan yerdə*** **Vətən yoxdur! Yalnız bundan sonra vahid azərbaycançılıq qalib gələcək!**"

Yaşa var ol ustad, bizim hələ Sizdən öyrənəcəyimiz çox şeylər var, Siz bizə, bu millətə lazımsınız, Allah Sizi qorusun!